## UNCTAD: «Azərbaycan fəal sərmayədar statusunda çıxış edir»

Regionda iqtisadi liderliyini təmin edən Azərbaycan həm də sərmayədar ölkə kimi nüfuz qazanmaqdadır. Respublikamızın bir sıra ölkələrə irihəcmli sərmayələr qoyması beynəlxalq təşkilatların, iqtisadi-maliyyə qurumlarının hesabatlarında da perspektivli proses kimi dəyərləndirilir. «Moody's» və «Fitch Ratings» reytinq agentliklərinin ardınca BMT Ticarət və İnkişaf Konfransının (UNCTAD) illik hesabatında Azərbaycanın regionda kreditor mövqeyinin güclü olduğu vurğulanır.

Qurumun dünya investisiyaları üzrə illik hesabatında Azərbaycanın 2011-ci ildə fəal sərmayədar statusunda çıxış etməsi və bir sıra ölkələrin iqtisadiyyatına iri həcmdə investisiyalar yatırması faktı xüsusi yer alıb. UNCTAD-ın qənaətincə, bir zamanlar xarici sərmayələrə ehtiyac duyan Azərbaycan hazırda böyük maliyyə vəsaiti tələb edən iqtisadi layihələri daxili imkanları hesabına gerçəkləşdirir, xarici ölkələrin iqtisadiyyatına həcmli kapital qoyuluşları həyata keçirir. Hesabata görə, 2011-ci ildə xarici ölkələrin iqtisadiyyatına Azərbaycanın birbaşa investisiyaları 2010-cu ildəki 232 milyon dollara qarşı 533 milyon dollar təşkil edib. Qeyd olunur ki, Azərbaycan bu göstərici ilə qlobal maliyyə böhranına qədər olan dövrün göstəricilərini bərpa edib: 2009-cu ildə Azərbaycandan investisiya ixracı 473 milyon, 2008-ci ildə 556 milyon, 2006-cı ildə 705 milyon dollar olub.

Azərbaycanın son illər iri həcmdə investisiya qoyduğu ölkələr sırasında Rusiya, Belarus, Ukrayna, Moldova, Gürcüstan və Türkiyə ilə yanaşı, İsveçrə kimi inkişaf etmiş dövlət də var. Ümumilikdə, respublikamız son illərdə digər ölkələrin iqtisadiyyatına 8 milyard dollar sərmayə qoyub. Respublikamızın kapital qoyuluşlarına ehtiyacı olan və bu məqsədlə müraciət edən dövlətlərin sayı isə ilbəil çoxalır. Şərqi Avropanın aparıcı dövlətləri arasında yer alan Polşa, Slovakiya, Çexiya kimi ölkələr Azərbaycanı bu ölkələrdə keçirilən özəlləşdirmə prosesində iştiraka dəvət edirlər. Məsələn, Polşa Azərbaycanla tikinti, kənd təsərrüfatı və aqrar sənaye kompleksi məhsullarının emalı da daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlıqda maraqlıdır.

Dünya Bankının proqnozlarına görə, ortamüddətli perspektivdə Azərbaycanın xalis xarici sərmayədara çevrilməsi tamamilə realdır. Buna etibarlı zəmin yaradan amillər sırasında ölkənin böyük həcmdə strateji valyuta ehtiyatlarına malik olması xüsusi qeyd olunur. Strateji valyuta ehtiyatları 44 milyard ABŞ dollarına çatan respublikamız bu vəsaitin müəyyən qismini xaricdəki pespektivli və rentabelli sahələrin inkişafına yönəldərək külli miqdarda gəlir əldə etməyə iddialıdır. Məsələn, 2011-ci ildə Türkiyə ərazisində Azərbaycan sərmayəsi əsasında inşa olunacaq böyük neft-kimya kompleksinin təməlqoyma mərasimi keçirilib. Azərbaycanın «SOCAR-Turcas Enerji» şirkəti «Petkim» neft-kimya kompleksinin nəzarət-səhm paketinin həlledici hissəsinin sahibinə çevrilib. 2014-cü ilə qədər «Petkim» təsisatlarına qoyulacaq sərmayələrin həcminin 10 milyard dolları aşacağı ehtimal olunur.

Sahibkarlarla dövlətin qarşılıqlı faydalı əməkdaşlığının təşəbbüskarı olan Prezident İlham Əliyev xarici ölkələrə yüksək səviyyəli səfərlərində iş adamlarının da iştirakını təmin edib. Bu da yerli sahibkarlara müxtəlif dövlətlərin işgüzar dairələri ilə yaxından tanış olmaq, ölkə iqtisadiyyatının inkişafı naminə müəyyən sazişlər imzalamaq imkanı yaradıb. Nəticədə ölkə sahibkarları Rusiya, Gürcüstan, Türkiyə, İran və Orta Asiya ölkələrinin iqtisadiyyatına investisiya qoyaraq sərmayədarlara çevrilirlər.

Respublikamız enerji sektoru ilə yanaşı, digər sahələrə - məsələn, qiymətli kağızlar bazarına, aktivlərə, səhmlərə, daşınmaz əmlak bazarına də maraq göstərilir. Dövlət Neft Fondunun yeni fəaliyyət strategiyasının qəbul edilməsi də buna əlverişli şərait yaradır. Bundan başqa, dövlət başçısının tapşırığına əsasən, ötən il müvafiq nazirlik və komitələrin nümayəndə heyətləri Balkan ölkələrinə və Rusiya Federasiyasının Şimali Qafqaz regionuna səfər ediblər. Səfərlər çərçivəsində yaradılmış səmərəli əlaqələr milli şirkətlərin xarici ölkələrdə fəal investisiya yatırımlarının həyata keçirilməsi imkanlarını genişləndirməyə xidmət edir.

UNCTAD-ın hesabatını şərh edən Amerika Ticarət Palatasının iqtisadçı eksperti Şahid Şükürov bildirir ki, respublikamızın investisiya imkanları hazırda beynəlxalq miqyasda yüksək dəyərləndirilir. Onun sözlərinə görə, neft gəlirlərinin səmərəli istifadə mexanizmlərindən biri də məhz xarici ölkələrin iqtisadiyyatına sərmayələrin yatırılmasıdır: «Türkiyə, Gürcüstan, Rumıniya, Moldova, Ukrayna, Belarus, Slovakiya və digər dövlətlərin sərmayə bazarlarında aktiv iştirak edən

Azərbaycan investor kimi mövqeyini möhkəmləndirir. Xarici sərmayə portfelində əsas yeri Türkiyə tutur. Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi bir milyard dolları ötüb. Bu layihələr yaxın illərdə Azərbaycana böyük məbləğdə gəlirlər gətirəcək».

Samir MUSTAFAYEV